# VƏLİXANLILAR

*(“Sənət fədailəri” silsiləsindən)*



Vaqif YUSİFLİ

**Ata və oğul. Sənətdə eyni yolun yolçusu olan atalar və oğullar var. Şair atalar-şair oğullar, rəssam atalar-rəssam oğullar, rejissor atalar-rejissor oğullar, aktyor atalar-aktyor oğullar. Ataların sənətdə qazandıqları uğurlar, onların parlaq istedadı oğullar üçün də bir örnəyə çevrilir. Varislik ənənəsini oğullar davam etdirir.**

Bu yazıda Azərbaycan teatr tarixində silinməz izlər buraxan Vəlixanlılardan söz açmaq istəyirəm. Xalq artisti Məmmədəli Vəlixanlıdan və Əməkdar artist Aqşin Vəlixanlıdan.



Məmmədəli Vəlixanlını (1899-1969) bizim daha yaşlı nəsillər xatırlayar. Əlli ildən artıq səhnə həyatında bu ustad sənətkar elə gözəl obrazlar yaratdı ki, bunları bir kimsənin o tərzdə ifa edəcəyi ağıla sığışmır.

Məmmədəli Vəlixanlı bənzəri olmayan sənətkar idi və teatr tariximiz də bunu öz yazılarında etiraf ediblər. Əslən Bakının Fatmayı kəndindən olan Ata Vəlixanlı çox erkən yaşlarından səhnəyə gəlmişdi. Əvvəlcə “Səfa” cəmiyyətinin nəzdindəki məktəbdə təhsil almışdı. 1911-ci ildə isə böyük gülüş ustası Cahangir Zeynalovun hazırladığı “Hacı Qara” tamaşasında Bədəl rolunda səhnəyə çıxmışdı.

Məmmədəli Vəlixanlı 1922-ci ildən ömrünün sonuna qədər aparıcı teatrımızın səhnəsində bənzərsiz rollar oynadı. Çox təəssüf ki, onun “Almaz” pyesində yaratdığı Ocaqqulunu, “Xoşbəxtlər”dəki Mirzə Qərənfili, “Yağışdan çıxdıq, yağmura düşdük” pyesində Hacı Qənbəri çoxumuz görməyib. Amma bu obrazları səhnədə onun ifasında görənlər indi də yaşayır və hamı etiraf edir ki, Vəlixanlı obraz yox, şedevr yaradıb.

Vəlixanlı Azərbaycan aktyor nəslinin birinci pleyadasına mənsub sənətkar idi. Yəni Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Mərziyə Davudova, Ağasadıq Gəraybəyli, Mirzağa Əliyev, Mustafa Mərdanov... bax, bu sənətkarlarla eyni nəsildəndi.

Məmmədəli Vəlixanlı sırf komik aktyor idi. Elə bir aktyor ki, hələ səhnə arxasından səsi gələndə tamaşa zalında sürəkli alqışlar qoparırmış. Görkəmli rejissor Mehdi Məmmədov deyərmiş ki, tamaşaçının ixtiyarı Vəlixanlının əlindədir, hara istəsə, sürükləyə bilər.

Onun bütün varlığı teatrla bağlı idi. İstedadlı adamların ürəyi geniş olur, çünki sənətinin böyüklüyü də o ürəkdən su içir. Qırxıncı illərə qədər onun ən yaxın dostları Cəfər Cabbarlı, Ülvi Rəcəb və Musa Hacızadə (o da aktyor idi, müharibədə həlak oldu) idi. Cabbarlı “Almaz”ı yazanda Ocaqqulu rolunu Vəlixanlı üçün nəzərdə tutubmuş. Sonrakı illərdə ən yaxın dostları Ələsgər Ələkbərov, Mehdi Məmmədov, Əjdər Sultanov, Ağasadıq Gəraybəyli, İsmayıl Dağıstanlı olub. Allah hamısının ruhunu şad eləsin!

Vəlixanlının öz həmkarları arasında həmişə xüsusi hörməti olub. Otuzuncu illərin əvvəllərində Azərbaycan Dram Teatrında belə bir əhvalat baş verib: teatrın hansısa respublikaya qastrol səfəri varmış. Həmin dövrdə təsərrüfat hesabı ilə işlədiyi üçün teatr bəzi aktyorları, o cümlədən Vəlixanlını qastrol heyətinə daxil etmir. Vəlixanlı heyətə salınmadığı üçün Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Mərziyə xanım da səfərdən imtina edirlər, o zaman teatr rəhbərliyi əlacsız qalıb onu da heyətə daxil edir.

Vəıixanlının son rolu Sabit Rəhmanın “Əliqulu evlənir” tamaşasında Xəlil olub. Cəmi iki dəfə, birinci və üçüncü tamaşada səhnəyə çıxıb. Beşinci tamaşada da səhnəyə o çıxacaqmış, amma qəfil xəstəlik buna imkan vermir. Vəlixanlı ömrünün yeddi ilini amansız xəstəliklə çarpışır. Amma bu illər ərzində dostları onu unutmur, hətta Mehdi Məmmədov “Hamlet”in radio tamaşasında çətinliklə də olsa, məzarçı rolunda onun səsini lentə yazdırır.

Oğul - Aqşin Vəlixanlı söyləyirdi ki, (bu söhbəti mən Aqşinin vəfatından bir il öncə qələmə almışam)...

- Xoşbəxtəm ki, belə bir kişinin və belə bir qüdrətli sənətkarın oğluyam. Bir də ona görə xoşbəxtəm ki, mən atamın mühiti ilə yaxından tanış idim. Atam öz sənət taleyində, bir aktyor kimi yetişməyində həmişə Cəfər Cabbarlının adını birinci çəkirdi. Onunla eyni ildə doğulsa da, Cəfərə böyük sənətkar kimi, ustad kimi baxırdı. Cahangir Zeynalovu da atam çox sevirdi, onun aktyor üslubu və ədası Cahangir Zeynalov sənətinə yaxın idi. Ayrı-ayrılıqda Rza Təhmasibin, İsmayıl Hidayətzadənin, Hacağa Abbasovun, Mirzağa Əliyevin atamın bir sənətçi kimi yetişməyində təsiri danılmazdır. 1928-ci ildə hələ gənc ikən atam Haqverdiyevin “Baba yurdunda” tamaşasında Namaz rolunu oynayıb. Bu rol o qədər uğurlu alınıb ki, üstündən 27 il keçəndən sonra Təhmasib onun təsiri ilə atamı “Mahnı belə yaranır” filminə çəkib.

Xoşbəxtlikdən mən atamın əksər rollarını görmüşəm. Bəzən o, səhnəyə qrimsiz çıxırdı. Xarakter ustası idi. O, özü bəzən böyük rollara deyil, nisbətən ikinci dərəcədi rollara meyil edirdi. Ancaq bu rolları elə oynayırdı ki, bəzən bir tamaşa, tərif olmasın, bu rolla qiymətə minirdi.

Deyim ki, mənim də aktyor olmağım atamın adı, sənəti ilə bağlıdır. Uşaqlıqdan teatr mühitində böyüdüyüm üçün ürəyimdən aktyor olmaq keçirdi. Amma onu deyim ki, atam bunun qəti əleyhinə idi. Orta məktəbi bitirəndən sonra atamdan gizlin sənədlərimi Teatr İnstitutuna verdim. Atam Ədil İsgəndərovdan eşitmişdi ki, mən imtahan vermişəm və “4” almışam. Evdə bir mərəkə qopardı ki... Amma iş işdən keçmişdi, dedi ki, sonrakı imtahanlarına kömək edərəm. Deyim ki, institutda o zaman ataya görə oğula hörmət etmək, yaxşı qiymət yazmaq məsələsi yox idi. Əksinə, professor Rza Təhmasib belə şeylərdə çox sərt idi. Amma atamın bir köməyi oldu ki, institutu bitirəndən sonra təyinatla Gəncə teatrına getmədim, Əzizbəyov teatrına gəldim.

Beləliklə, Aqşin Vəlixanlı da atasının yolunu davam etdirir. İnstitutda oxuyan zaman o, Sabit Rəhmanın “Xoşbəxtlər” tamaşasında Mirzə Qərənfil rolunu oynayır. Amma özünün etiraf elədiyinə görə bu rolun öhdəsindən gələ bilmir, pis oynayır. Sən demə, Məmmədəli Vəlixanlı o tamaşaya baxırmış. Üzünü çevirib gedir. Sonra N.B.Vəzirovun “Ağa Kərim xan Ərdəbili” pyesində baş rolu oynayır.Və tədricən hər şey qaydasına düşür. Özü də bir çox tamaşalarda vaxtilə atasının oynadığı rolları ifa edir (Ocaqqulunu, Xəlili, Mirzə Qərənfili, bir də “Hind gözəli”ndə Cəlladı. Amma səmimi şəkildə etiraf edirdi ki, mən o rolları atam kimi oynaya bilmədim. Elə onun Cəllad roluna tamaşa eləmək üçün teatrın bütün aktyorları tamaşa zalına gəlirdi).

Amma Aqşin Vəlixanlı da Akademik teatrın səhnəsində özünü təsdiq edən, məxsusi aktyor temperamenti olan aktyor olub. Mən onun bir neçə tamaşada oynadığı rolları görmüşəm. “Hökmdar və qızı” tamaşasında Sisianov obrazını xüsusilə yaxşı xatırlayıram. Aqşinin ilk rolu isə altmışıncı illərdə “Şeyx Sənan” tamaşasında oynadığı Şeyx Hadi rolu olub. Onda aktyorun 24 yaşı olsa da qoca şeyxin rolunu uğurla oynadı.

Aqşin Vəlixanlı gur səsi, aydın diksiyası olan aktyor idi. Həm komik, həm də dramatik rolları eyni məharətlə oynayırdı. Xüsusilə, milli dramaturqların əsərlərində oynadığı rollar daha yaddaqalan idi.

* * *

O zaman Vəlixanlılar haqqında müəyyən məlumat əldə edəndə bu ocağın yeganə qız övladı Nailə xanıma da baş çəkdim. (Nailə Vəlixanlı tarixçidir, akademikdir). Onun da atası və qardaşı haqqında ürək sözlərini dinlədim.



- Bir ata kimi bənzərsiz idi. Mən onun yeganə qızıyam, ona görə xətrimi çox istəyirdi. Elə mən də hamıdan çox atamı sevmişəm. Olduqca kövrək ürəyi vardı. Tamaşa zalını özünün bircə mimikası, sözü ilə güldürən bu adam bəzən bir qəmli hadisənin şahidi olanda, ya kədərli bir mahnı eşidəndə gözləri yaşarardı.

Camaat arasında böyük hörməti vardı. Təsəvvür edin ki, küçəyə çıxır, ət dükanının qarşısından keçəndə qəssaba deyir ki, mənə iki kilo ət saxla. Elə söz ağzından çıxanda bütün növbədəkilər kənara çəkilir, üzlərində təbəssüm “buyurun, buyurun” deyirdilər. Beş yaşı olanda atam Xorasan ziyarətinə gedib. Daha doğrusu, əmisi oğlanlarını yola salırmışlar, ağlayıb-ağlayıb, məcbur olub onu da aparıblar. Atam quşları, balıqları çox sevirdi. Hələ cavan yaşlarında hansı qəzetdəsə onun haqqında belə bir yazı çıxmışdı: “Quşbaz aktyor”. Vəfat edəndə evdə çoxlu tutuquşu vardı, xırda balıqlar saxlayırdı.

Qardaşım Aqşin də atamın sənətini seçdi. Mən onunla da fəxr edirəm. Atama çox bənzərliyi vardı. O da atam kimi hazırcavab, yerini-məqamını bilən insan idi.

